Mən uzun illərdir ki, aqrar sektorda çalışıram. Fəxrlə qeyd etmək istəyirəm ki, ulu öndər Heydər Əliyev hələ 1969-cu ildə respublikamıza rəhbərlik etdiyi ilk gündən başlayaraq, ölkəmizin dayanıqlı iqtisadi inkişafı, əhalinin maddi rifah halının durmadan yaxşılaşdırılması üçün gərgin və səmərəli işlər görmüşdür. Dahi siyasətçi müstəqil Azərbaycana rəhbərlik etdiyi sonrakı dönəmdə də ölkəmizdə ictimai-siyasi sabitliyi bərqərar etməklə yanaşı, iqtisadiyyatın sürətli inkişafına böyük önəm verirdi.

Xoşbəxtlikdən, xalqımızın parlaq gələcəyinə xidmət edən bu müdrik siyasət bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Hazırda Azərbaycan nəinki regionda, eləcə də bütün dünyada dayanıqlı iqtisadiyyata malik olan ölkə kimi tanınır. Azərbaycan daim irəli getmək arzusundadır. Bu da təbiidir. Bizim zəngin təbii sərvətlərimiz, ondan heç də az əhəmiyyəti olmayan yüksək intellektual imkanlarımız var.



***Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan – 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sənəddə qarşıdakı dövrdə ölkənin əsas sosial-iqtisadi inkişaf istiqamətləri və buna uyğun milli prioritetləri müəyyənləşdirilib. Bu, bir həqiqətdir ki, güclü iqtisadiyyata malik ölkələr hər şeyə qadirdir. Ölkəmizin sürətli iqtisadi inkişafını təmin etmədən onun etibarlı müdafiəsini də təşkil etmək mümkün deyildir. Buna görə də haqqında söz açılan Milli Prioritetlərin qəbul edilməsini bir alim, ziyalı kimi ürəkdən alqışlayıram.***

# Azərbaycan qarşıdakı onillikdə daha güclü və qüdrətli olacaq

Bəlli olduğu kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetin reallaşdırılması nəzərdə tutulur: – dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; – dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; – rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; – işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; – təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bu istiqamətlərin hər biri mühüm əhəmiyyət kəsb edir. Mən sonuncu prioritet – "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" barədə qısa da olsa öz fikirlərimi bildirmək istəyirəm. Bu istiqamət ürzə növbəti onillikdə qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq, ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer veriləcək, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq ediləcəkdir. Bu prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır: – yüksək keyfiyyətli ekoloji mühit; – yaşıl enerji məkanı.

Bunlar çox mühüm vəzifələrdir. Hesab edirəm ki, bu sahədə davamlı uğurlar əldə etmək üçün əhalinin ekoloji maarifləndirilməsi işini mütləq gücləndirmək lazımdır. Bu istiqamətdə dövlət təşkilatları ilə bərabər, ölkəmizdə müvafiq sahələr üzrə fəalyyət göstərən qeyri-hökumət təşkilatlarının və medianın üzərinə də böyük vəzifələr düşür.

Azərbaycan hazırda çağdaş dünyanın ən görkəmli dövlət xadimlərindən biri sayılan Prezident İlham Əliyevin müdrik liderliyi ilə sürətlə inkişaf və tərəqqi edir. Dövlətimizin məqsədi Azərbaycanı dünyanın ən qabaqcıl və zəngin ölkələrindən birinə çevirməkdir. Biz əl-ələ verib böyük hədəflərə doğru uğurla addımlamalıyıq.

Doğma Qarabağda Vətən müharibəsində böyük zəfər qazanan Azərbaycan iqtisadi sahədə də böyük uğurlar əldə etməyə, dünyanın lider ölkələrindən birinə çevrilməyə layiqdir və buna tamamilə qadirdir. Düşünürəm ki, Milli Prioritetlərin əsas məramı da məhz budur. Bəli, müstəqil Azərbaycan daha güclü və daha qüdrətli olmalıdır! İnşallah, məhz belə olacaq!

***Babakişi QULİYEV,***
***Quba Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru***

Xalq qəzeti 2021.- 5 fevral.- S.3.